*UOT 37.01*

***Adilə Həsən qızı Nəzərova***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*aparıcı elmi işçisi,filologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/ 0000-0002-4340-6882*
*E-mail: adile1970@mail.ru*
*https://doi.org/10.69682/arti.2026.93(3).123-127*

# MƏNƏVİ TƏRBİYƏ VƏ MƏRHƏLƏLİ İNKİŞAF: İMAM QƏZALİ MODELİ MÜASİR PEDAQOGİKADA

***Adila Hasan Nazarova***
*leading research worker*
*at the Institute of Education of the Republic of Azerbaijan*
*doctor of philosophy in philology*

# SPIRITUAL EDUCATION AND STAGED DEVELOPMENT: IMAM GHAZALI'S MODEL IN MODERN PEDAGOGY

***Адила Гасан гызы Назарова***
*ведущий научный сотрудник*
*Института Образования Азербайджанской Республики*
*доктор философии по филологии*

# ДУХОВНОЕ ВОСПИТАНИЕ И ПОЭТАПНОЕ РАЗВИТИЕ: МОДЕЛЬ ИМАМА ГАЗАЛИ В СОВРЕМЕННОЙ ПЕДАГОГИКЕ

**Xülasə.** Məqalədə mənəvi tərbiyə və mərhələli inkişaf konsepsiyası İmam Qəzalinin “Cənnətə qovuşduran abidlər yolu” əsəri əsasında araşdırılır. Qəzali yanaşmasının mərhələli inkişaf prinsipi, elm və əməl vəhdəti, müəllim rolu, fərdi təşəbbüs və özünütərbiyə komponentləri müasir pedaqogika ilə müqayisə olunur. Əsər dini-əxlaqi təlim və şəxsiyyətin sistemli inkişafını təmin edən universal pedaqoji model kimi təqdim edilir. Xülasə göstərir ki, Qəzali modeli şəxsiyyətyönlü və özünü inkişaf etdirməyə yönəlmiş tərbiyə yanaşmasını ortaya qoyur.
***Açar sözlər:*** *Mənəvi tərbiyə; mərhələli inkişaf; İmam Qəzali; elm və əməl vəhdəti; özünütərbiyə; müəllim və rəhbərlik modeli; motivasiya; etnopedaqogika; milli-mənəvi dəyərlər; ümumbəşəri dəyərlər*

**Abstract.** The article examines the concept of spiritual education and gradual development based on Imam Ghazali's work "The Path of the Devotees Leading to Paradise". The principle of gradual development, the unity of knowledge and practice, the role of the teacher, individual initiative and self-education components of Ghazali's approach are compared with modern pedagogy. The work is presented as a universal pedagogical model that provides both religious and moral education and the systematic development of the personality. The summary shows that Ghazali's model reveals an educational approach that is personality-oriented and focused on self-development.
***Keywords:*** *Spiritual education; gradual development; Imam Ghazali; unity of knowledge and practice; self-education; teacher and leadership model; motivation; ethnopedagogy; national-moral values; universal values*

**Аннотация.** В статье рассматривается концепция духовного воспитания и постепенного развития на основе труда Имама Газали «Путь преданных, ведущий в рай». Принцип постепенного развития, единство знания и практики, роль учителя, индивидуальная инициатива и компоненты самообразования в подходе Газали сопоставляются с современной педагогикой. Работа представлена как универсальная педагогическая модель, обеспечивающая как религиозно-нравственное воспитание, так и

систематическое развитие личности. В заключение показано, что модель Газали раскрывает личностно-ориентированный подход, сфокусированный на саморазвитии.

***Ключевые слова:*** *духовное воспитание, поэтапное развитие, Имам Газали, единство знаний и практики, самообразование, модель учителя и лидера, мотивация, этнопедагогика, национально-нравственные ценности, универсальные ценности*

Ümumbəşəri dəyərlərə, həmçinin dünya və milli mədəniyyətlərə istiqamətlənmə pedaqoji mədəniyyətin araşdırılmasında əsas istiqamətlərdən biri kimi çıxış edir. Bu kontekstdə etnik birliklərin əsrlər boyu formalaşdırdığı tərbiyə təcrübəsini öyrənən etnopedaqogika xüsusi əhəmiyyət kəsb edir. Bu sahə milli-mədəni ənənələrin tərbiyə prosesindəki rolunu sistemli şəkildə araşdırır.

Araşdırmalar göstərir ki, xalqın mənəvi sərvəti əxlaqi dəyərlər sistemi və dini prinsiplərlə sıx bağlıdır. Nəsillərarası mənəvi irsin ötürülməsi prosesi əsasən əməyə münasibət, yaradıcılıq fəaliyyəti və xalqın zəngin folklor irsi ilə tanışlıq vasitəsilə həyata keçirilir. Gənclər milli-mədəni ənənələri mənimsədikcə, sosial və mənəvi dəyərləri daxili dünyalarına inteqrasiya edir və bu, onların şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır. “Özündə çoxəsrlik hikməti qoruyub saxlamış atalar sözləri, bayramlar, dastanlar, ayinlər, əfsanələr və nağıllar mənəvi-etik nəsihət və öyüdlərlə zəngindir. Bunlar həm milli-mənəvi, həm də ümumbəşəri dəyərlərə yiyələnməyə xidmət edən pedaqoji təcrübəni əks etdirir.” (3, s. 96)

İslam düşüncə tarixində mənəvi tərbiyə konsepsiyasını sistemli şəkildə işləyən ən böyük simalardan biri də İmam Qəzalidir. Onun “Cənnətə qovuşduran abidlər yolu” zahiri baxımdan dini-əxlaqi kitab kimi görünsə də, mahiyyət etibarilə bu əsər mərhələli tərbiyə sistemidir. Kitabda təqdim olunan model təkcə ibadət yolunu deyil, insanın mənəvi inkişaf mexanizmini izah edir. Əslində burada “cənnətə aparan yol” ifadəsi metafizik məqsədi ifadə edir və kamil insan modelini simvolizə edir. Bu mənada əsər pedaqoji baxımdan şəxsiyyətin formalaşması proqramıdır. (5, s. 45)

Müasir Azərbaycan pedaqoji düşüncəsində tərbiyə məsələsi prioritet istiqamət kimi qəbul olunur. Ümummilli lider Heydər Əliyev məktəbi təkcə bilik verən müəssisə kimi deyil, şəxsiyyəti formalaşdıran sosial institut kimi qiymətləndirmişdir. Onun fikrincə, müəllim gənc nəslin mənəvi-əxlaqi formalaşmasında əsas fiqurdur. Professor Akif Abbasov qeyd edir ki, “1991-ci ildə Azərbaycan müstəqilliyini əldə etdikdən sonra təhsil sistemimizin təkmilləşdirilməsi, yeniləşdirilməsi, müasirləşdirilməsi istiqamətində səmərəli tədbirlər həyata keçirilməyə başladı. Yeni “Təhsil Qanunu” qəbul olundu və burada təhsilə aid müxtəlif məsələlərlə yanaşı tərbiyəyə geniş yer verilməsi, milli-mənəvi dəyərlərə yiyələnmək, milli adət və ənənələrimizi qoruyub saxlamaq, onları yaşatmaq diqqət mərkəzində dayandı” (1, s. 81)

Bu yanaşma İmam Qəzali tərəfindən təqdim edilən mənəvi tərbiyə modeli ilə paralellik təşkil edir. Hər iki halda məqsəd təkcə bilik ötürmək deyil, insanın daxili dünyasının inkişafını təmin etmək, mərhələli proses vasitəsilə şəxsiyyətin formalaşmasını dəstəkləməkdir. Müasir məktəblərdə müəllimlər yalnız akademik bilikləri ötürmür, eyni zamanda şagirdlərin mənəvi inkişafına rəhbərlik edən mentor kimi çıxış edir, onların şəxsiyyətyönlü təşəbbüslərini dəstəkləyir və özünütərbiyəyə yönəldir.

Mənəvi inkişaf üçün effektiv təhsil modelləri tələbələrin özünü dərk etməsi və özünü inkişaf etdirməsinə yönəlməlidir. Bu yanaşma onların daxili təkamülünü stimullaşdıran əsas amillərdən biri hesab olunur. Özünə refleksiya əsaslı belə model mövzunun nəzəri əsaslarını birləşdirərək mənəvi inkişafın sistemli şəkildə öyrənilməsi üçün imkan yaradır və müasir pedaqoji tədqiqatlarda mənəvi formalaşmanın əhəmiyyətini göstərir. (7, s. 37)

Bu baxımdan, milli-mənəvi dəyərlərin öyrədilməsi və mənimsədilməsi dövlət siyasəti və pedaqoji praktikalar üçün əsas prioritetdir.

İmam Qəzali insanın kamilliyə birdən-birə çatmadığını xüsusi olaraq qeyd edir. Onun fikrincə, həqiqətə aparan yol mərhələlərlə keçilir, çətinliklərlə müşayiət olunur və şüurlu şəkildə addımlamağı tələb edir. Bu inkişaf yolunu o, müəyyən dayanacaqlar və maneələr vasitəsilə izah edir: elm əldə etmək, tövbə etmək, qarşıya çıxan maneələri dərk etmək, qorxu ilə ümid arasında tarazlığı qorumaq və ixlas sahibi olmaq (5, s. 46-47).

Bu yanaşma müasir inkişaf psixologiyasında qəbul edilən mərhələlilik prinsipinə uyğun gəlir. Şəxsiyyət zamanla, addım-addım formala-

şır. Tərbiyə isə bir dəfə baş verən hadisə deyil, uzun müddət davam edən və ardıcıl şəkildə həyata keçirilən bir prosesdir.

Müasir pedaqoji yanaşmada da ümumi təhsil müəssisələrinin fəaliyyəti oxşar prinsiplər üzərində qurulur. Humanitar hazırlıq modeli şagirdlərin mərhələli inkişafını təmin edir və onların fərdi xüsusiyyətlərinə uyğunlaşdırılır. Humanitar təhsilin səmərəli sistemi aşağıdakı prinsiplərə əsaslanır:

- Təhsil cəmiyyət və şəxsiyyətin tələbatına, məktəbin marağına, müəllimlərin pedaqoji və peşəkarlıq səviyyəsinə, mütəxəssisin səriştəsi və mədəniyyətinə uyğunlaşdırılır.
- Təlim-tərbiyə prosesində müxtəlif forma və metodlardan istifadə edilir, şagirdlərin sərbəstliyi və təşəbbüskarlığı dəstəklənir.
- Təlim fərdiləşir; şagirdlərin qabiliyyəti, maraqları və humanitar hazırlığa meyl mərhələli şəkildə inkişaf etdirilir.
- Müxtəlif variantlı məşğələlər, dərs vəsaitləri, alternativ müəllif kursları və yoxlama metodları tətbiq olunur.
- Yeni pedaqoji metodlar, qaydalar, vasitələr və proqramlar sistemli şəkildə reallaşdırılır.

Beləliklə, Qəzali yolu ilə müasir pedaqogikanın yanaşması arasında birbaşa paralellər var: hər ikisi mərhələli inkişafı, çətinliklərin şüurlu öhdəsindən gəlməni və şəxsiyyətin tədricən formalaşmasını əsas götürür. Müasir məktəb isə bu prinsipləri təhsil sistemi çərçivəsində konkret metod və vasitələrlə həyata keçirir, şagirdlərin fərdi inkişafına imkan yaradır.

Qeyd edək ki, İmam Qəzali tərəfindən təqdim olunan **mənəvi-pedaqoji yanaşma** yalnız mərhələli inkişaf prinsipi ilə məhdudlaşmır. O, elm və əməl vəhdətini, niyyətin və ixlasın təmizliyini, özünütərbiyə və refleksiyanı, qorxu və ümid tarazlığını, tövbə və korreksiya mexanizmini, eləcə də öyrənilən biliklərin mərhələli və praktik tətbiqini əsas prinsiplər kimi vurğulayır. Bu yanaşmalar bir-birini tamamlayaraq şəxsiyyətin mənəvi və əxlaqi formalaşmasına xidmət edir. Qəzalinin mənəvi pedaqogikası yalnız nəzəri və mərhələli öyrənməyə deyil, həm də əməli fəaliyyətə, özünütərbiyə motivasiyasına, refleksiv özünüqiymətləndirməyə və şəxsi təkamülə diqqət yetirir.

İmam Qəzali islamda qeyd-şərtsiz qəbul olunan "Elm əməlin rəhbəridir, əməl isə elmə tabedir" prinsipini əsas götürərək bildirir ki, "...elm öz-özlüyündə tabe olunan bir həqiqətdir." O, elmi ilk sıraya qoyma səbəblərini izah edir. Qəzali elmə yalnız bilik toplamaq kimi baxmır; onun üçün əsl dəyər elmin davranışa çevrilməsindədir. Elm və əməl bir-birindən ayrı olmamalıdır – öyrənilən bilik insanın xarakterində və hərəkətlərində transformasiya yaratmalıdır. Əks halda, bu bilik yarımçıq qalır. Bu yanaşma müasir pedaqogikada səriştəəsaslı təhsillə səsləşir: məqsəd yalnız məlumatlı insan yetişdirmək deyil, məsuliyyətli, əməl sahibi və şəxsiyyət olaraq formalaşmış insan yetişdirməkdir. (5, s. 49)

Tərbiyə prosesində əsas komponentlər – məqsəd, məzmun, əməli fəaliyyət və təhlil-nəticə bu yanaşmanı konkretləşdirir:

- Məqsəd komponenti müəllim və şagirdə tərbiyənin məqsədini müəyyənləşdirməyə imkan verir, uşağın fərdi maraqları ilə cəmiyyətin tələbləri nəzərə alınır.
- Məzmun komponenti şagirdin tərbiyəsinin əsas istiqamətlərini əhatə edir, onun sosial münasibətlərdə müxtəlif rolları yerinə yetirmək bacarığını formalaşdırır.
- Əməli fəaliyyət komponenti isə pedaqoji vasitələr kompleksini və tərbiyə məsələlərinin məqsəd əsasında həllini müəyyənləşdirir.
- Təhlil-nəticə komponenti isə əldə edilmiş transformasiyanı və inkişafı qiymətləndirir.

Qəzali modeli ilə müasir pedaqogika arasında paralellik mövcuddur: hər ikisi mərhələli inkişaf və şəxsiyyətin tədricən formalaşmasını əsas götürür. Elm və əməl vəhdəti mənəvi tərbiyənin və ümumi təhsil prosesinin mərkəzində durur.

Əsərin əsas nüvəsi niyyətdədir. İmam Qəzali göstərir ki, eyni əməl fərqli niyyətlərlə tamamilə başqa nəticə verə bilər. Bu fikir müasir pedaqogikada fərdi təşəbbüs və niyyət anlayışı ilə paralel aparıla bilər. Şagird niyə öyrənir? Qiymət üçün, yoxsa həqiqət üçün? İbadət edən niyə edir? Adət üçün, yoxsa mənəvi yüksəliş üçün? Bu suallar əslində tərbiyənin əsasını təşkil edir. (5, s.78)

Bu baxımdan təlim prosesində motivasiya və dialoq xüsusi əhəmiyyət kəsb edir. Dialoq problemə marağı artırır və iştirakçılar üçün özünü təsdiq etmə imkanını yaradır. Şəxsiyyətlərarası dialoqda inkişafın xarakterik xüsusiyyətləri aşağıdakılardır:

- Obyektiv problemlilik;

- Məna axtarışının subyektiv yaşanan vəziyyəti;
- Dialoq iştirakçıları arasında qarşılıqlı anlaşma və birliyin münasibəti;
- Başqasına tolerant münasibət;
- Zehni fəallığı stimullaşdıran nəticənin natamamlığı.

Təhsilalanlar həmişə özlərini və imkanlarını düzgün dərk edə bilmir. Həm obyektiv, həm də subyektiv çətinliklərlə üzləşən şagirdlər, özünütərbiyədə şəxsi təşəbbüsləri ilə pedaqoji köməyə müraciət edirlər. Bu kömək, özünütərbiyənin stimullaşması kimi qiymətləndirilir. Stimullaşmanın mahiyyəti şəxsiyyətin tələbat və motivasiya səviyyəsində inkişafında, sağlam tələbatlar və fəaliyyət motivləri yaratmaq üçün şəraitin formalaşdırılmasındadır.

Qəzali müəllimi istiqamət göstərən, ruhu qoruyan şəxs kimi təqdim edir. Bu, sadəcə bilik ötürən müəllim modeli deyil. Burada müəllim mənəvi mentor funksiyasını daşıyır. Müasir təhsildə mentorluq və fərdi yanaşma prinsipləri bu baxımdan Qəzalinin düşüncəsi ilə səsləşir. Tərbiyə prosesi fərdin daxili dünyasını nəzərə almadan mümkün deyil. (5, s.102)

İmam Qəzali insanı davamlı daxili hesaba çağırır:

- Mən bu yolda haradayam?
- Maneələrim nədir?
- Qorxu və ümid tarazlığını qoruyurammı? (5, s.150)

Bu suallar reflektiv pedaqogikanın əsas mexanizmləridir. Özünü dərk etmədən inkişaf mümkün deyil. Özünütərbiyənin effektivliyi yalnız qaydaların və xarici metodların tətbiqindən ibarət olmamalıdır. Şagirdin qarşılıqlı ünsiyyətə hazırlığı, özünütəsdiqə olan tələbatının oyadılması ilə təmin edilməlidir. Bu, müəyyən dəyərlərin və tolerantlığın qəbulunda və ifadəsində özünü büruzə verir.

Əsas hissənin vacib elementlərindən biri korreksiyadır. N.Y.Şurkova korreksiyanı bir növ irəliləyişə, iştirakçıların mövqeyinə, baxışlarına yaxınlaşmaq üçün edilən düzəliş kimi başa düşür (9, s.16).

Korreksiyaedici təsir zamanı nəzərdən keçirilən problemlərin alternativ variantlarını təqdim etmək vacibdir. İş zamanı oyun texnologiyalarından və kollektiv fəaliyyət vasitələrindən istifadə olunur.

Problemin nəzərdən keçirilməsində xüsusi rol son mərhələyə verilir. Onun əsas hissəsi isə refleksiyadır, yəni öz təəssüratlarını təhlil etməkdir. Hər iştirakçı öz işini, iştirakını və hisslərini qiymətləndirir. Empirik nümunələrdə dialoq və refleksiya vasitəsilə şagirdlərin özünü dərk etməsi və mənəvi tərbiyəsi təmin edilir. Bu prosesdə ünsiyyət texnologiyasından istifadə iştirakçıların şəxsiyyətinin inkişafını şərtləndirir, onların mövqeyini formalaşdırır, dialoji təfəkkür və emosional sərbəstlik qazandırır. Bu keyfiyyətlər ünsiyyət texnologiyasını tolerantlığın inkişafı və tolerant şüurun formalaşması üçün effektiv vasitəyə çevirir.

Sistemli yanaşmada özünütərbiyənin stimullaşdırılması ictimai-pedaqoji mühitdə çoxsəviyyəli və məqsədyönlü qarşılıqlı təsir nəticəsində formalaşır. Bunun nəticəsində özünütərbiyədə tələbatlar inkişaf edir. *"Tələbənin mənəvi keyfiyyətlərinin inkişafına əlverişli şərait yaradan şəxsiyyətyönlü tərbiyə texnologiyasından istifadə məqsədəuyğundur"* (8, s.82). Bu kontekstdə "sosial təlim" prinsipi mühüm rol oynayır.

Beləliklə, özünütərbiyə və refleksiya, Qəzali yanaşmasında olduğu kimi, müasir pedaqogikada da şəxsi inkişafın, daxili hesabatın və mənəvi yüksəlişin ayrılmaz hissəsi hesab edilir.

Müasir dövrdə milli maraqlara xidmət edən sistemli və institusional yanaşmanın olmaması xarici modellərin mexaniki tətbiqinə şərait yarada bilər. Bu baxımdan tərbiyə məsələsinə multidissiplinar və qurumlararası yanaşma zəruridir. Təhsil, mədəniyyət, idman, elm və digər sahələrdə vahid ideya əsasında sistemli fəaliyyət göstərilməsi gənc nəslin milli və ümumbəşəri dəyərlər əsasında formalaşmasını təmin edir.

Uşaq və gənclərin tərbiyəsi yalnız məktəbin deyil, bütöv ictimai institutların ortaq məsuliyyətidir. Cəmiyyətin ehtiyac və tələblərinə cavab verən, xalqına və dövlətinə sədaqətli, mənəvi baxımdan yetkin və vətənpərvər nəsil yetişdirmək bu sistemli yanaşmanın əsas məqsədidir. (3, s.6)

Müasir təhsil mühiti tərbiyə prosesini yeni vasitələrlə zənginləşdirsə də, əsas diqqət yenə də şəxsiyyətin daxili və mənəvi inkişafına yönəlir.

Mənəvi tərbiyə yalnız fərdin daxili aləmi ilə məhdudlaşmır, onun ictimai münasibətlərinə də təsir göstərir. Xarakterin milli xüsusiyyətlərini dərk etmək və tarixi prosesləri anlamaq insanı öz kimliyinə bağlayır və digər xalqları obyektiv

qiymətləndirməyə imkan verir. Öz xalqını və ailəsini şüurlu şəkildə sevən insan başqa mədəniyyətə düşmən mövqedə durmaz; əksinə, digər xalqlarda müsbət cəhətləri görmək və onların mədəniyyətini tanımaq tolerant düşüncəni formalaşdırır. İmam Qəzalinin mənəvi saflaşma modeli insanı kin və təkəbbürdən uzaqlaşdıraraq ədalətli və mərhəmətli münasibətə yönəldir. Bu yanaşma göstərir ki, milli kimliklə ümumbəşəri dəyərlər bir-birinə zidd deyil; əksinə, bir-birini tamamlayan mənəvi sahələrdir. Zəngin və çoxqatlı Azərbaycan mədəniyyəti də məhz bu qarşılıqlı təsir və açıq düşüncə sayəsində inkişaf etmişdir.

**Nəticə.** İmam Qəzali bu əsərində dini-mənəvi dili seçsə də, ortaya qoyduğu model universal tərbiyə sistemidir. O, insanın kamilləşməsini mərhələli proses kimi təqdim edir, elmi əmələ bağlayır, niyyəti əsas prinsip kimi önə çəkir və müəllimi mənəvi rəhbər səviyyəsinə yüksəldir. Bu baxımdan "Cənnətə qovuşduran abidlər yolu" əsəri müasir pedaqogika üçün əxlaqi prinsiplərə əsaslanan və özünütərbiyəni önə çəkən alternativ tərbiyə modeli təqdim edir.

Beləliklə, Qəzalinin mənəvi-pedaqoji sistemi yalnız ibadət yolunu deyil, insanın daxili təkamül yolunu da göstərir. Məqsəd, mərhələli inkişaf əsasında *kamil, məsuliyyətli və şüurlu şəxsiyyət* yetişdirməkdir ki, bu da hər bir tərbiyə modelinin son məqsədini təşkil edir.

**Problemin aktuallığı.** Müasir dövrdə gənc nəslin mənəvi-əxlaqi formalaşması qlo-ballaşma və informasiya axını səbəbindən daha aktualdır. Təhsil yalnız bilik ötürmək məqsədi daşımır; bu, həmçinin şəxsiyyətin daxili inkişafı və əxlaqi möhkəmlənməsinə xidmət edir.

**Problemin elmi yeniliyi.** Problemin elmi yeniliyi tədqiqatın İmam Qəzaliyə aid mənəvi tərbiyə modelini sistemli pedaqoji yanaşma kimi araşdırması və müasir pedaqogika ilə müqayisə aparmasından ibarətdir, burada mərhələli inkişaf, elm və əməl vəhdəti, daxildən gələn təşəbbüs və müəllim rolu yeni interpretasiya çərçivəsində təqdim olunur.

**Problemin praktik əhəmiyyəti.** Tədqiqatın nəticələri şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun mənəvi tərbiyə proqramlarının hazırlanmasında istifadə oluna bilər. Həmçinin, müəllim hazırlığında, pedaqoji maarifləndirmədə və ailə-məktəb əməkdaşlığında praktiki tövsiyələr verir.

**Ədəbiyyat**


1. Abbasov A. N. Milli əxlaq və ailə etikası: Orta ixtisas məktəbləri üçün dərslik / A. N. Abbasov. –Bakı: Mütərcim, –2015. –324 s. s. 81
2. Cəbrayılov, İ.H. Ümumtəhsil məktəblərində tərbiyə işinin təşkili: Metodik vəsait / İ.H. Cəbrayılov, V.C. Xəlilov, K. Mikayılova. –Bakı: CH Poliqrafiya, –2023. –242 s.
3. Əliyev P.B. Tərbiyə işinin təşkilinin nəzəriyyəsi və metodikası. / Dərs vəsaiti. – Bakı: "CH Poligrafiya", –2023. –460 s.
4. Əliyeva Ş. Təlim-tərbiyə və inkişaf prosesinin həyata keçirilməsi. Modul: dərs vəsaiti AMKÇİD layihəsi tər. hazırlanıb. –Bakı: ARTN və ARTİ, –2020. –297s.
5. Gazali, İ. *Cennete kavuşturan Abidler yolu (Minhacü'l-Abidin ilel-cenneti)* (Çevirmen: Hamidullah Ünal). –İstanbul: Rauza yayınları, –2016. –448 s.
6. Kazımov N. M. Mərhələli tərbiyə nəzəriyyəsi. –Bakı: Əlfərül nəşriyyatı, –2007. –116 s.
7. Lu, Jane I. (2021). Educational models of spiritual formation in theological education: Introspection-based spiritual formation. Teaching Theology & Religion, 24, 28-41. DOI: 10.1111/teth.12560
8. https://doi.org/10.1111/teth.12560
9. Məmmədzadə R.R., Tərbiyə texnologiyalarından faydalanmaqla tələbələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi imkanları, // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 92, №1, – 2025. – s.81-85 https:/ /jour nals. arti. edu. az/up loads/ f_20 250 404083159774037518.pdf
10. Шукшунов В. Е. От сознания парадигмы к образовательной практике // Взаимодействие властных структур и вузов на современном этапе развития общества: Тезисы докладов международной научно-практической конференции. – Тюмень, 1996. – с.14-15.


**Redaksiyaya daxil olub:** 03.04.2026